No: 02 2025
https://doi.org/10.64400/ndueej.045
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# LOGİSTİKA FƏALİYYƏTİNİN TARİXİ FORMALAŞMASI

**Günel İsayeva**

https://orcid.org/0009-0003-5640-6106
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
Yazışılan müəllif: gunelisayeva@ndu.edu.az

## XÜLASƏ

Logistika fəaliyyəti qədim dövrlərdən bugünə qədər insan cəmiyyətinin sosial və iqtisadi həyatında mühüm rol oynamışdır. İlkin mərhələlərdə daha çox hərbi məqsədlərə xidmət edən logistika, zamanla iqtisadi münasibətlərin mürəkkəbləşməsi və texnoloji inkişaflarla paralel şəkildə dəyişmiş və inkişaf etmişdir. Bu proses ərzində logistika tədarük, daşınma və ehtiyatların idarə olunması kimi funksiyalarla başlayaraq, son nəticədə inteqrasiya olunmuş təchizat zənciri idarəetməsi, strateji planlaşdırma və rəqəmsal əlaqələndirmə kimi kompleks funksiyaları özündə birləşdirən fəaliyyət sahəsinə çevrilmişdir. Bu məqalədə logistika fəaliyyətinin tarixi inkişaf yolu, onun ilkin hərbi kontekstdə formalaşmasından müasir iqtisadi sistemlərdəki strateji roluna qədər keçdiyi mərhələlərdən bəhs edilir.

**Açar sözlər**: *logistika; logistikanın tarixi; logistikanın formalaşması*

## GİRİŞ

Logistika fəaliyyəti insan cəmiyyətinin inkişaf tarixi ilə sıx bağlı olmuş, zaman keçdikcə dəyişərək və təkmilləşərək müasir iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevrilmişdir. Əsrlər boyu ticarət yollarının genişlənməsi, müharibələrin təşkili, əmtəə və resursların daşınması kimi proseslər logistikanın ilkin formalarının yaranmasına zəmin yaratmışdır. Ənənəvi dövrlərdə karvan yolları, liman şəhərləri və anbar sistemləri bu fəaliyyətin əsas elementləri olmuşdur. Sənaye inqilabından sonra isə texnologiyanın sürətli inkişafı ilə logistikanın rolu daha da artmış, tədarük zəncirinin idarə olunması, nəqliyyat sistemlərinin əlaqələndirilməsi və ehtiyatların optimallaşdırılması kimi yeni istiqamətlər meydana çıxmışdır. Bu kontekstdə, logistikanın tarixi inkişaf mərhələlərini təhlil etmək, onun keçmişdən bu günə qədər keçdiyi yolu və qarşısında duran çağırışları anlamaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

### Logistika fəaliyyətinin ilkin formada yaranması

Logistikanın tarixi başlanğıcı qədim sivilizasiyalara — xüsusilə Roma, Yunan və Bizans imperiyalarına gedib çıxır (1). Bu dövrlərdə logistika anlayışı hərbi ehtiyaclardan irəli gəlmiş və əsasən orduların qida, silah və digər ləvazimatlarla təmin edilməsinə xidmət etmişdir. Roma imperiyasında “logista” vəzifəsi daşıyan şəxslər hərbi resursların toplanması və səmərəli bölüşdürülməsi ilə məşğul olurdu. Bu sistemlər ehtiyatların düzgün planlaşdırılması və coğrafi məkan üzrə rasional şəkildə yönləndirilməsi baxımından strateji əhəmiyyət daşıyırdı.

Orta əsrlərdə karvan yollarının, ticarət limanlarının və şəhərlərarası əlaqələrin formalaşması ilə logistikanın tətbiq sahəsi genişlənməyə başladı. Ticarət yolları üzərində yerləşən şəhərlərdə resursların bölgüsü və daşınması üzrə təcrübələr toplanmış, bu isə logistikanın mülki sektor üçün də vacib olmağa başladığını göstərmişdir.

### Sənaye inqilabından sonra logistikanın iqtisadi sistemlərdə rolu

XVIII əsrin sonlarından etibarən baş verən sənaye inqilabı logistika fəaliyyətinin yeni mərhələyə keçidinə səbəb olmuşdur. Kütləvi istehsalın artması, xammal və hazır məhsul axınlarının intensivləşməsi, yeni nəqliyyat vasitələrinin (buxarlı qatar, gəmi, avtomobil) meydana çıxması logistik əməliyyatların miqyasını və mürəkkəbliyini artırdı. Bu dövrdə logistika artıq yalnız fiziki daşınma ilə məhdudlaşmır, həm də istehsalat və satış proseslərinin koordinasiyası baxımından əsas rol oynamağa başlayır.

XX əsrin ikinci yarısından etibarən informasiya texnologiyalarının tətbiqi logistika fəaliyyətlərinin keyfiyyətcə yeni mərhələyə keçməsinə zəmin yaratdı. Belə ki, Just-in-time (JIT) 1980-ci illərin əvvəllərindən geniş şəkildə tanınan alternativ istehsal fəlsəfəsindən istifadə olunmuşdur. JIT prinsipləri və texnikaları bir çox istehsal firmaları tərəfindən geniş şəkildə qəbul edilmişdir. Bu yaxınlarda tədarük zəncirinin idarə edilməsi ilkin xammalı hazır məhsulun son istehlakı ilə əlaqələndirən proseslərin dizaynı, planlaşdırılması və nəzarətinə yönəlmiş bir intizam kimi inkişaf etmişdir (7).

Bu yanaşmalardan digəri isə "Lean Logistics" anlayışıdır ki, Azərbaycan dilində "Səmərəli logistika" mənasını verir. Burada əsas məqsəd lazım olandan artıq məhsul saxlamaqdan qaçmaq, daha az marşrut, daha az məsrəf, məhsul və xidmətin daha tez çatdırılması, daha az əl əməyinə ehtiyac, tələbat dəyişdikdə sürətli uyğunlaşmaq kimi istehsal prosesesindən satışa qədərki mərhələdəki xərcləri minimum endirməkdir (5).

| **"Lean Logistics" nəyi əhatə edir?** | |
|---|---|
| Stokların minimuma endirilməsi | Əməliyyatların avtomatlışdırılması |
| Daşınma proseslərinin optimallaşdırılması | Vaxt itkisini azaltmaq |
| Əməliyyatların sadələşdirilməsi | Təchizat zəncirində çeviklik və çevik reaksiya |

**Cədvəl №1 [müəllif tərəfindən hazırlanmışdır]**

Müasir dövrdə logistika sahəsində yeni yanaşmalardan biri də "Supply Chain Logistics" ifadəsi azərbaycanca "Təchizat zəncirinin logistikası" deməkdir. Burada əsas məqsəd məhsulun və ya xidmətin ilkin xammal mərhələsindən son istehlakçıya qədər olan bütün hərəkətini və əlaqəli proseslərini yaratmaqdır. Yəni, materialların və xammalın tədarükü, anbarlaşdırma, nəqliyyat və daşınma, ehtiyatların idarə olunması, sifarişlərin yerinə yetirilməsi, qablaşdırma və çeşidləmə, müştəriyə çatdırılma və son olaraq, geri qaytarmalar və tullantıların idarə olunması kimi mərhələlər Təchizat zəncirinin logistikasında təhlil edilir (2). Başqa sözlə desək, məhsulun harada və necə istehsal olunmasından tutmuş, necə daşınması və müştəriyə necə çatdırılmasına qədər olan bütün logistik fəaliyyətləri özündə birləşdirir.

Beləliklə, qloballaşma tendensiyaları beynəlxalq təchizat zəncirlərinin formalaşmasını sürətləndirdi və logistik qərarların daha çox strateji əhəmiyyət kəsb etməsinə səbəb oldu. Müasir dövrdə şirkətlər yalnız yerli bazarlarla kifayətlənməyərək, xammal, yarımfabrikat və hazır məhsulları müxtəlif ölkələrdən tədarük edir, istehsal proseslərini isə coğrafi və iqtisadi baxımdan sərfəli regionlarda həyata keçirirlər. Bu isə təchizat zəncirinin daha mürəkkəb və çoxpilləli bir sistemə çevrilməsinə gətirib çıxarır. Belə şəraitdə logistika artıq sadəcə daşınma və anbarlaşdırma fəaliyyəti kimi deyil, bütün biznes strategiyasının ayrılmaz hissəsi kimi çıxış edir. Şirkətlər logistikanı düzgün və effektiv şəkildə idarə etməklə, həm xərcləri azalda, həm də bazar çevikliyini və müştəri məmnuniyyətini artıra bilirlər. Bu səbəbdən, beynəlxalq səviyyədə fəaliyyət göstərən təşkilatlar üçün logistik qərarların strateji planlamada xüsusi yeri vardır.

Eyni zamanda, turizm sektorunda olan sahibkarların turizm və logistikanın inteqrasiyalı şəklində dəyərləndirilməsi onların fəaliyyətində müsbət nəticələrə gətirib çıxarır. Belə ki, turizm xidmətlərə əsaslanan bir sahə olsa da, onun uğurlu fəaliyyəti arxasında güclü və effektiv logistika sisteminin dayanması şərtdir. Turistlərin rahat şəkildə hərəkət etməsi, vaxtında yerləşdirilməsi, qida, bələdçilik və əyləncə kimi xidmətlərin koordinasiyalı şəkildə təqdim olunması məhz logistikanın düzgün planlaşdırılması və idarə olunması ilə mümkün olur. Bu kontekstdə logistika yalnız fiziki daşımaları deyil, həm də resursların optimal bölüşdürülməsi, xidmət təminatçıları arasında əlaqənin qurulması və turist təcrübəsinin fasiləsiz şəkildə təmin edilməsini əhatə edir. Beləliklə, turizmdə logistika – görünməz, lakin həyati əhəmiyyət daşıyan bir dayaq kimi çıxış edir, sektorun rəqabət qabiliyyətinə və müştəri məmnuniyyətinə bilavasitə təsir göstərir. Müasir dövrdə isə bu təsirin miqyası daha da genişlənmiş, logistikanın idarə olunması daha mürəkkəb və çevik yanaşmalar tələb edən bir sahəyə çevrilmişdir. Xüsusilə beynəlxalq turizmin inkişafı ilə logistika fəaliyyətləri

sərhədlərarası əlaqələrə və qlobal təchizat zəncirlərinə daha çox bağlı hala gəlmişdir. Qloballaşma ilə bağlı olan geosiyasi risklər, iqlim dəyişiklikləri, ticarət məhdudiyyətləri və pandemiya kimi qlobal hadisələr də logistikanın planlanmasında mühüm amillərə çevrilmişdir. Bu risklərin idarə olunması və davamlı təchizatın təmin edilməsi məqsədilə müəssisələr rəqəmsal texnologiyalara, real vaxt izləmə sistemlərinə və alternativ logistik modellərə yönəlirlər.

**Nəticə**

Logistika fəaliyyətinin tarixi inkişaf mərhələləri göstərir ki, bu sahə hərbi və ticarət ehtiyaclarından doğaraq zamanla mürəkkəb idarəetmə və informasiya sistemlərinə inteqrasiya olunmuşdur. Əvvəlcə sadə resurs bölgüsü və daşınması kimi funksiyaları yerinə yetirən logistika, bu gün müəssisələrin rəqabət qabiliyyətini artıran, xərclərin optimallaşdırılmasına və müştəri məmnuniyyətinin təmininə yönələn strateji fəaliyyət sahəsinə çevrilmişdir. Rəqəmsallaşma, avtomatlaşdırma və süni intellektin tətbiqi ilə logistika daha çevik, proqnozlaşdırıla bilən və inteqrasiya olunmuş sistemə çevrilməkdədir. Tarixi baxış logistikaya təkcə praktiki fəaliyyət deyil, eyni zamanda strateji planlaşdırma və iqtisadi inkişafın mühüm elementi kimi yanaşmanı zəruri edir.

**ƏDƏBIYYAT SIYAHISI:**


1. İmanov T.İ. Logistikanın əsasları. (teminoloji aparatı, konsepsiyası və metodoloji əsasları) (474 səh) Bakı- 2005, səh 28
2. Christopher, M. *Logistics and Supply Chain Management*. Pearson Education Limited 2005 (ISBN 0 273 68176 1) (317p.)
3. Ghiani, G., Laporte, G., & Musmanno, R. (2004). *Introduction to Logistics Systems Planning and Control*. Wiley. ISBN: 9780470849163 https://www.researchgate.net/publication/236110407_Introduction_to_logistics_systems_planning_and_control
4. Rodrigue, J. P. Comtois C., Slack B. (2020). *The Geography of Transport Systems*. DOI: 10.4324/9781315618159 ISBN: 9781315618159 (December 2016) https://www.researchgate.net/publication/318837359_The_Geography_of_Transport_Systems
5. Sutherland J. Logistics from a Historical Perspective DOI: 10.1201/9781420088571.ch1 (December2008) https://www.researchgate.net/publication/299637052_Logistics_from_a_Historical_Perspective
6. Wronka A. LEAN LOGISTICS May 2017 Journal of Positive Management 7(2):55 DOI: 10.12775/JPM.2016.012 https://www.researchgate.net/publication/320222420_LEAN_LOGISTICS
7. Ozalp İ., Suvacı B., Tonus H.Z. A NEW APPROACH IN LOGISTICS MANAGEMENT: JUST IN TIME-LOGISTICS (JIT-L) (2010) https://dergipark.org.tr/en/pub/ijbms/issue/26070/274755



**ABSTRACT**

**HISTORICAL DEVELOPMENT OF LOGISTICS ACTIVITIES**

**Gunel Isayeva**

Logistics has historically played a crucial role in shaping the social and economic structures of human societies. Originating as a function primarily associated with military operations, it gradually transformed in response to the growing complexity of economic systems and technological advancements. Over time, logistics evolved beyond basic tasks such as supply, transportation, and inventory management to become an integrated discipline encompassing supply chain management, strategic planning, and digital coordination. This paper examines the historical evolution of logistics, highlighting its transition from early military applications to its current strategic significance within modern global economies.

**Keywords:** *logistics, historical development, evolution of logistics, supply chain management*

## РЕЗЮМЕ

## ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ЛОГИСТИЧЕСКИХ ДЕЙСТВИЙ

**Гюнель Исаева**

Логистика на протяжении всей истории играла важную роль в социальной и экономической жизни человеческого общества. На начальных этапах логистика в основном служила военным целям, но со временем она изменилась и развилась в параллели с усложнением экономических отношений и технологическими достижениями. В этом процессе логистика, начиная с функций, таких как снабжение, транспортировка и управление запасами, в конечном итоге превратилась в комплексную область, охватывающую интегрированное управление цепочками поставок, стратегическое планирование и цифровую координацию. В данной статье рассматривается историческое развитие логистических процессов, начиная с их первоначальных военных контекстов и заканчивая стратегической ролью в современных экономических системах.

**Ключевые слова:** *логистика; история логистики; развитие логистики*